UOT 332.336

*Arif Azər oğlu MUSTAFAYEV*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

# ŞUŞA ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ DİRÇƏLDİLMƏSİNİN İNVESTİSİYA TƏMİNATI

*Xülasə*

**Tədqiqatın məqsədi** - 44 günlük Vətən müharibəsi nəticəsində azad edilmiş Qarabağın, o cümlədən Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşanın dirçəldilməsi, sosial-iqtisadi inkişafı dövlətimizin qarşısında duran prioritet məsələlərdəndir. Bu istiqamətdə quruculuq işləri üçün daxili və xarici investisiyaların bu bölgəyə cəlb edilməsinin mövcud vəziyyətinin qiymətləndirilməsi və inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın metodologiyası -** Tədqiqatda təhlil, şərh, sintez, məntiqi ümumiləşdirmə kimi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** İşğaldan azad edilmiş Şuşa şəhərinin dirçəldilməsi istiqamətində görüləcək işlərin maliyyə dəstəyinin təmini, xarici və yerli sahibkarların bu istiqamətdə fəaliyyətlərini həyata yetirmək üçün lazım olan maliyyə-kredit və investisiya təminatının artırılmasına dəstək verməkdir.

**Tədqiqatın nəticələri -** İşğaldan azad edilmiş Şuşa şəhərinin dirçəldilməsi istiqamətində dövlətin qarşıya qoydugu tədbirlər proqramlarının tədbiqində investisiya təminatının gələcək inkişafa müsbət təsiri aşkar edilmişdir.

**Tədqiqatın orijinallıgı və elmi yeniliyi -** 44 günlük ikinci Qarabag müharibəsi nəticəsində işgaldan azad edilən torpaqların dirçəldilməsi istiqamətində dövlətin sosial-iqtisadi istiqamətlərinin yerinə yetirilməsi üçün maliyyə yatırımlarının və ivestisiya vasitələrinin cəlb edilməsi yollarının axtarılmasından ibarətdir.

***Açar sözlər: Şuşa şəhəri, dirçəldilmə, sosial-iqtisadi inkişaf, agıllı şəhər, infrastrukturlar, maliyyə ehtiyatları, yerli və xarici investisiyalar.***

## *Giriş*

Şuşa şəhərinin inkişafına yönəldilən investisiyanın vəziyyəti, cəlbediciliyi və təminatının araşdırılması indiki dövrdə iqtisadi inkişaf layihələrinin, strategiyalarının və proqramların həyata keçirilməsi üçün müsbət imkanların olmasını ortaya çıxaracaqdır. Regionların investisiya inkişafının prioritetlərini öyrənmək üçün ən geniş yayılmış üsul regionların müxtəlif meyarlar üzrə təsnifatını aparmaq, yerli maliyyə imkanlarını müəyyən etmək, investisiya şərtlərini tərtib etmək vacibdir. Şuşa şəhərinin yenidən qurulması dövlətimizin əsas prioritetlərindəndir.

**Şuşa şəhərinin inkişafının əsas istiqamətləri**

Azərbaycanın qədim şəhərlərindən olan Şuşa şəhəri bu gün dirçəldilir və inkişaf dövrünə başlamışdır. Əsarətdə olan dövrdən indiki vaxta qədər bu şəhərdə düşmən azərbaycanlıların tarixi izlərini silmək məqsədilə 600-ə yaxın tarixi memarlıq abidəsini dagıtmışdır. Dagıdılan məktəb, mədəni-maarif, ümumtəhsil müəssisələri, məktəbəqədər uşaq müəssisələri ilə yanaşı düşmən qüvvələr tarixi irsimizi də məhv etməyə çalışmışlar.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və ordumuz tərəfindən Qarabagın azad edilməsi nəticəsində bu ərazilərin dirçəldilməsi, yenidən qurulması dövlətimiz üçün vacib məsələ olmuşdur.

Şuşa şəhərinin əhalisinin geri qayıtması və məskunlaşmasının təmini üçün 27 binanın tikilməsi və bərpa edilməsinə başlanmışdır. Həmçinin yaşayış şəraitinin yaxşılaşdırılması, infrastrukturların yenidən qurulması, sosial obyektlərin, idarə və təşkilatların, incəsənət ocaqlarının, məscidlərin bərpasına yönəldilən vəsaitlər və cəlb edilən investisiyalar tezliklə Şuşa şəhərinin əvvəlkindən də gözəl, müasir bir şəhərə çevrilməsini təmin edəcəkdir. Ümumiyyətlə, Qarabağın təbiəti, yerli

imkanları, tarixi abidələri, işğaldan azad olunmuş digər ərazilər kimi Şuşa şəhərinin, həmçinin turizm mərkəzinə çevrilməsi nəzərdə tutulur. Bu məqsədlə şəhərin istehsal, sosial infrastrukturlarının, kommunal xətlərinin, mədəniyyət və incəsənət obyektlərinin,yaşayış və inzibati binaların, turizm mərkəzlərinin tikilməsi üçün lazımi maliyyə resurslarının və investisiya yatırımlarının müəyyənləşdirilməsi vacib məsələlərdəndir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 23 aprel 2022-ci il tarixdə Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı-Zəfər Qurultayındakı çıxışında dünya azərbaycanlıları və iş adamlarına müraciət edərək Qarabağın, həmçinin Şuşa şəhərinin dirçəldilməsi və yenidən qurulmasına investisiya yatırımları etməyə çagırdı.

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı istiqamətində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən hər il, müvafiq olaraq, dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görülməsi nəzərdə tutulmuşdur. İşgaldan azad edilmiş Qarabağın, o cümlədən Şuşa şəhərinin dircəldilməsinə yönəldilən maliyyə ehtiyatları, yerli və xarici investisiyaların tez bir zamanda öz bəhrəsini verməsi ücün dövlət lazımi tədbirlər planı hazırlamışdır.

Azərbaycan Respublikası regionlarının inkişafında indiki dövrə qədər qəbul edilmiş və yüksək səviyyədə yerinə yetirilmiş dövlət proqramları, dövlətin bu sahələrin inkişafına dair sərəncamları nəzərdə tutulan məsələlərin həlli, regionların sosial-iqtisadi inkişafına,burada sosial infrastrukturların və kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, sahibkarlığın münbit mühitinin yaradılmasına, yeni müəssisə və təşkilatların yaradılması, iş yerlərinin açılması və çoxaldılmasına,investisiya qoyuluşunun artırılmasına və regionlara investisiyanın yönəldilməsi üçün tədbirlərin keçirilməsinə, yerli əhalinin məşgullugunun artırılmasına və rifah halının yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin yerinə yetirilməsi üçün zəmin yaratmışdır. Qəbul olunan və müvəffəqiyyətlə yerinə yetirilən bu qərar və sərəncamlar bütövlükdə dövlətin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Dövlət eynilə işgaldan azad edilmiş torpaqların tezliklə dirçəldilməsi, əvvəlkindən daha yaxşı və müasir standartlara cavab verəcək səviyyədə qurulması üçün imkanlara malikdir.

Bütövlükdə işgaldan azad edilmiş və 30 il ərzində demək olar ki, düşmən tərəfindən tamamilə dagıdılmış Qarabağın, o cümlədən Şuşa şəhərinin tarazlı və hərtərəfli inkişafı, iqtisadi fəallığın yüksəlməsi, iş yerlərinin və yeni müəssisələrin yaradılması, əhalinin məşğulluğunun yaradılması, ümumilikdə regionun dayanıqlı və sürətli inkişafının təmin olunması dövlətin prioritet məsələlərindəndir.

Bu sahələrin inkişafı, işğaldan azad edilmiş ərazilərin tez bir zamanda bərpası və digər regionların inkişafından daha yüksək səviyyəyə çatdırılması dövlətin qarşısında duran başlıca vəzifədir. Sözsüz ki, bu məsələlərin həlli maliyyə ehtiyatlarının, yerli və xarici investisiyaların bu istiqamətdə cəmləşdirilməsini zəruri edir.

Maliyyə ehtiyatlarının əldə edilməsi məqsədi ilə Şuşa şəhəri azad edildikdən sonra bir çox tədbirlər keçirilərək şəhərə istər yerli iş adamları, istər xarici qonaqların dəvət edilməsi, şəhərlə tanış olmaları buraya maliyyə yatırımı etmək istəyənlərin artmasına səbəb olacaqdır.Şuşa şəhərində yenidən "Xarıbülbül" musiqi festivalının, Vaqif Poeziya Günlərinin keçirilməsi siyasi, tarixi-mədəni əhəmiyyət kəsb edir. Cıdır düzündə keçirilən tədbir şəhərin təbiətinin turizm mərkəzinə çevrilməsi üçün şərait yaratdıgını şübut edir. Məhz Şuşa şəhərinin resurs potensialının yüksək olması, tarixi mədəniyyət ocağı olması,şəhərin Azərbaycan üşün əhəmiyyət kəsb etməsi bu şəhərin dünya standartlarına uyğun müasir bir şəhərə çevrilməsini labüd edir.

Bildiyimiz kimi, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi,buna görə də burada incəsənət və mədəniyyət sahəsi üzrə obyektlərin, musiqi məktəbləri, muzeylər, kitabxanalar, konsert zalları, hətta musiqi konservatoriyalarının tikilməsini labüd edir. Tez-tez keçirilən konfranslar, musiqi festivallarının və digər tədbirlərdə iştirak edənlərin, o cümlədən şəhərə gələn

turistlərin yerləşdirilməsi üçün yeni mehmanxanaların, gələcəkdə keçiriləcək idman yarışları üçün idman zallarının tikilməsi vacibdir. Bu, şəhərdə tikinti işlərinin genişlənməsi üçün şərait yaradacaqdır. Bu məqsədlə Şuşa şəhərində kiçik və orta sahibkarlıgın inkişafına münbit şərait yaradacaqdır. Bu həmçinin iş yerlərinin yaranması, məşgullugun artmasına imkan verəcəkdir. Şəhərə köçürülən yerli sakinlərin işlə təmin edilməsi, məşğulluğun artması, əhalinin rifah halının yaxşılaşması üçün zəmin yaratmış olacaqdır.

**Şuşa şəhərinin inkişafına yönəldilmiş investisiya təminatının təhlili və proqnozlaşdırılması**

2020-ci ildə 44 günlük ikinci Qarabag müharibəsində yuxarıda qeyd etdiyimizdən çox ziyan vurulmuşdur. Dəymiş ziyanı aradan qaldırmaq üçün regionun ehtiyatları , bərpası üçün lazım olan vəsaitlər hesablanaraq dövlətin Qarabagın dirçəldilməsi üçün qurulmuş planlarda nəzərdə tutulur. Bu həm dövlətin daxili maliyyə imkanları, həm də daxili və xarici investisiyaların köməyi ilə həll olunması nəzərdə tutulan işdir.

Ümumiyyətlə, Qarabağda dağıdılmış şəhər və kəndlərin yenidən tikilməsi və bərpası məqsədilə nəzərdə tutulan quruculuq işləri üçün büdcədən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Quruculuq işləri başlamışdır, Şuşa şəhərində mehmanxana, bir çox muzeylər, məscid bərpa edilmişdir. Yeni yaradılan "Qarabağ Dirçəliş Fondu"nun fəaliyyətinin strateji istiqamətlərində Qarabağın investisiya və işgüzar potensialının təşviqi,işğaldan azad olunmuş ərazilərin, o cümlədən Şuşa şəhərinin işgüzar fəallığının stimullaşdırılması və sərmayə potensialının təşviqi üzrə layihələrin hazırlanmasının vacibliyi qeyd edilmişdir. Burada həmçinin, məsuliyyətli investisiyaların işğaldan azad edilmiş ərazilər və bütövlükdə Azərbaycan dövləti üçün uzunmüddətli və davamlı əlavə dəyər yaradaraq, cəmiyyətimizə müsbət təsir göstərmək üçün nümunəvi və məsuliyyətli investor olmağa və investisiya imkanlarından maksimum bəhrələnməyə imkan yaradacağı da göstərilmişdir.

Dövlət başçısının apardıgı xarici və iqtisadi siyasətin təsirindən xarici investorların ümumilikdə Qarabağ, o cümlədən Şuşa şəhərinə marağını artırmağa başlamışdır. Xarici diplomatlar, jurnalistlər, iş adamları, o cümlədən, dünya azərbaycanlılarının bu regionda, xüsusilə də Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada müxtəlif tədbirlərdə iştirak etmələri bu əraziləri görmək, buranın potensialını müəyyən etmək və gələcəkdə buraya investisiya yatırımları edilməsini sürətləndirir.

Şuşa şəhərinin bərpası zamanı istehsal sahə infrastrukturları ilə yanaşı həm də sosial infrastrukturların bərpası vacib məslələlərdəndir. Sosial sahələrin, yəni, nəqliyyat yolları, kommunikasiya xətləri, məktəblər, səhiyyə ocaqları, mədəniyyət ocaqları, kommersiya (topdan və pərakəndə ticarət müəssisələri) infrastrukturlarının bərpası və ya yenidən yaradılması şəhərin tam halda dircəlməsi və yerli əhalinin normal yaşayışı üçün şərait yaratmış olacaqdır.Məhz bu sahələrin yaradılması və normal fəaliyyəti üçün şəhərin əsas problemlərinin həllinə və onun inkişafının prioritet istiqamətlərinin icrasına yönəldilməlidir. [6, s. 19]. İnkişaf strategiyası özündə şəhərin onun fəaliyyətini təmin edən infrastrukturlarla təmin olunmasının qiymətləndirilməsini əks etdirməlidir. Şəhərin dirçəldilməsi, bərpası və yenidən müasir standartlara uyğun yaradılması bu işlər üçün ayrılmış dövlət vəsaitinə qənaət edilməsi, cəlb edilmiş və yatırılacaq investisiyaların səmərəliliyinin artırılması istiqamətində aparılması məqsədəuygundur.

Şuşa – qədim şəhər olmaqla yanaşı Qarabağ xanlığının paytaxtı və şəhərsalma mədəniyyətinin nadir nümunəsi sayılır. Burada olan bir çox tarixi mədəniyyət abidələrinin dagıdılması hər bir azərbaycanlının ürək agrısıdır. İşğaldan azad olmuş Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şəhərin tarixi abidələrinin bərpası və eyni zamanda şəhərin müasir simasını yaratmaq üçün lazımi vəsaitlər istər dövlət tərəfindən, istər özəl təşkilatlar və istərsə də yerli və xarici investorlar tərəfindən əldə edilə bilər. Bu məqsədlə şəhərin tanıdılması, yerli imkanların müəyyən edilməsi, inkişaf və bərpa planının düzgün tərtibi vacib şərtdir.

Şuşa şəhərinin inkişafına yönəldilmiş yerli və xarici investisiyalar yeni, qeyri-maddi və maliyyə ehtiyatlarının əldə olunması üçün mövcud resusrsların istifadə olunmasını təmin edəcəkdir. Yatırılmış investisiyalar iqtisadi artımı, o cümlədən şəhərin sosial-iqtisadi inkişafının əldə olunma-

sı məqsədi ilə lazımi maliyyə ehtiyatlarının formalaşması mexanizmini təmin edən iqtisadi təsir kimi xarakterizə olunur.

2021-ci ildə Şuşa şəhərinin baş planı tərtib edilmişdir. Tezliklə dövlət büdcəsindən ayrılan vəsaitlə dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin məqbərəsi, şəhərdəki muzey-məqbərə kompleksi təmir-bərpa işlərindən sonra açıldı və şairin evinin önündəki büstü də yenidən qoyuldu.

Azərbaycan Respublikasında 2022-ci il Şuşa ili elan edildi.Bu il ərzində Şuşada bir çox tədbirlər həyata keçirilməsi nəzərdə tutulur və keçirilir. Məhz bu tədbirlər daha çox xarici turistlər,iş adamlarının bu şəhərə gəlişinə marağı artırır. Sözsüz ki, iş adamlarının müxtəlif sahələrə investisiya yatırımı etmə ehtimalı da artmış olur.

Azad edilmiş Qarabağın dirçəldilməsi və bərpası dövlətin bu istiqamətdə bölgənin iqtisadi potensialı, sənaye və kənd təsərrüfatı, turizm və digər qeyri-neft sektorunun dirçəldilməsi və inkişafını özündə əks etdirən inkişaf konsepsiyasının yaradılması və yerinə yetirilməsini labüd edir. İşğal dövründə Şuşa şəhərinin yaxınlığında olan, dövlət qoruğu sayılan Topxana meşələrinin qırılması bu ərazinin ekoloji mühitinə də ziyan vurmuşdur. Fauna və flora, şəhərin tarixi mədəni abidələri, yaşayış və sosial infarstrukturlara vurulmuş ziyan xüsusi qurumlar tərəfindən araşdırılaraq qiymətləndirilməli,hesablanmalı, onların bərpası üçün tədbirlər görülməli,investisiyaların cəlb edilməsi üçün dövlət tərəfindən strategiyalar hazırlanmalıdır. Uygun strategiyalara əsasən inkişaf planları işlənib hazırlanmalı, bunun üçün həm yerli, həm də xarici investorların edəcəkləri yatırımların dövlət tərəfindən qorunmasını təmin etmək vacib məsələlərdəndir. Bu məsələlərin həlli üçün bəzi tədbirlərin görülməsi vacibdir. İlk növbədə bölgədə sabitliyin təmin edilməsi və təhlükənin aradan qaldırılması; bölgənin dirçəldilməsi; bərpası və inkişafına yönəldilən tədbirləri müəyyən etmək; bölgənin strateji iqtisadi inkişaf planını hazırlamaq; infrastrukturun bərpa edilməsi; geri köçürülən əhalinin normal həyat şəraitini təmin edən infrastrukturları bərpa etmək və yenisini yaratmaq; ərazinin yerli imkanlarını aşkar etmək və qiymətləndirmək; yerli və xarici investorlar üçün şərait yaratmaq; kiçik və orta sahibkarlıq üçün münbit imkanlar yaratmaq; dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayırmaq; xarici investorların yatıracagı yatırımlara dövlət tərəfindən qarantiya verilməsi; investorlar üçün yatırım etmələri üçün imkanlar və fürsətlər yaratmaq .

İşğaldan azad edilmiş Qarabağ torpaqlarında dirçəliş, bərpa və yenidənqurma işlərinin sürətlənməsi bu işlərin daha yaxşı və müasir standartlara uyğun yaradılması, bu bölgənin cənnətə çevrilməsi və tezliklə yerli əhalinin öz yerlərinə dönərək xöşbəxt yaşamasının təmin edilməsi Azərbaycan dövlətinin qarşıda duran ən vacib məsələlərindəndir. Buna aparılan düzgün siyasətə əsaslanan sosial-iqtisadi inkişafda əldə edilən müvəffəqiyyətlərlə nail olmaq olar.

### *Nəticə*

Ümumilikdə dövlətin strateji inkişaf hədəflərinə daxili imkanlar və yerli və xarici investorların diqqətinin məhz regionlara yönəldilməsi və maliyyə yatırımlarının köməyi vasitəsilə regionların sosial-iqtisadi inkişafı,iqtisadi potensialının artması, infrastrukturun yenilənməsi və yenidən qurulması, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsi, biznes və investisiya mühitinin inkişaf etdirilməsi, məçgullugun artması, əhalinin rifah halının yüksəldilməsi məsələləri daxildir. Məhz dövlətin bu istiqamətdə işgaldan azad edilmiş ərazilərimizdə sosial-iqtisadi inkişaf proqramları regionda tez bir zamanda öz bəhrəsini verərək inkişafın sürətlənməsini təmin edəcəkdir. Bu məqsədlər üçün yaradılan "Qarabağ Dirçəliş Fondu", dövlətin maliyyə dəstəyi, daxili və xarici potensial investorların axtarılması, onlardan təkliflərin toplanması və təhlili, müvafiq sənədlərin hazırlanması və onların daha perspektivlilərinin müvafiq dövlət orqanlarında baxılması üçün yönləndirilməsi həlli vacibdir.

Ümidvarıq ki, aparılan quruculuq işləri əhalinin tezliklə bu şəhərdə məskunlaşmasına, ictimai-sosial şəraitin yaradılmasına,məşgullugun olmasına və dinc yaşaması və inkişaf etməsinə təminat verəcəkdir.

**ƏDƏBİYYAT**

1. Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı. Biblioqrafiya. Bakı – 2021.
2. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 29 yanvar 2019-cu il.
4. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.
5. Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin strateji istiqamətləri (2022-2025).
6. Əkbərov Məhərrəm. “Azad olunmuş rayonlarda kommersiya fəaliyyətinin bərpası yolları” UNEC Ekspert, 2021, səh. 19.

***Ариф Азер оглы Мустафаев***
***докторант Азербайджанского Университета Кооперации***

**Инвестиционная гарантия социально-экономического возрождения города Шуша**

***Резюме***

**Цель исследования:**. Возрождение и социально-экономическое развитие освобожденного в результате 44-дневной гражданской войны Карабаха, в том числе Шуши, являющейся культурным центром Азербайджана, является одной из приоритетных задач, стоящих перед нашим государством. В этом направлении определено современное состояние привлечения отечественных и иностранных инвестиций в данный регион для строительных работ и направлений развития.

**Методология исследования:** В исследовании использовались такие методы, как анализ, интерпретация, синтез, логическое обобщение.

**Значимость внедрения исследования:** Финансовая поддержка работ, проводимых в направлении возрождения города Шуша, освобожденного от оккупации, призвана способствовать повышению финансово-кредитной и инвестиционной безопасности, необходимой иностранным и местным предпринимателям для осуществления своей деятельности в этом городе. направление.

**Результаты исследования:** Положительный эффект гарантирования инвестиций на будущее развитие был обнаружен в реализации государственной программы действий в направлении ревитализации освобожденного от оккупации города Шуша.

***Ключевые слова: город Шуша, возрождение, социально-экономическое развитие, умный город, инфраструктура, финансовые ресурсы, местные и иностранные инвестиции.***

***Arif Azer Mustafayev***
***doctoral student of Azerbaijan University of Cooperation***

**Investment guarantee of socio-economic revival of the city of Shusha**

***Summary***

**The purpose of the study:** The revival and socio-economic development of Karabakh, liberated as a result of a 44-day civil war, including Shushi, which is the cultural center of Azerbaijan, is one of the priority tasks facing our state. In this direction, the current state of attracting domestic and foreign investments in this region for construction work and development directions is determined .

**Research methodology:** The study used such methods as analysis, interpretation, synthesis, logical generalization.

**Application importance of the research:** Financial support for the work carried out in the direction of the revival of the city of Shusha, liberated from occupation, is designed to increase the financial, credit and investment security necessary for foreign and local entrepreneurs to carry out their activities in this city. direction.

**Originality and scientific novelty of the research:** The positive effect of guaranteeing investments on future development was found in the implementation of the state action program towards the revitalization of the city of Shusha liberated from occupation.

***Key words: Shusha city, revival, socio-economic development, smart city, infrastructure, financial resources, local and foreign investments.***